## “Kapital Bank” ASC-də Mükafatlandırma siyasəti

Kapital Bank” Açıq Səhmdar Cəmiyyətinin mükafatlandırma siyasəti Azərbaycan Respublikasının hüquqi aktları, habelə Bankdaxili qayda, siyasət və prosedurlar əsasında hazırlanmışdır. Bu Siyasətin əsas məqsədi “Kapital Bank” ASC-də (bundan sonra "Bank") maddi mükafatlandırma sisteminin formalaşdırılması və tənzimlənməsidir.

Bankın mükafatlandırma sistemi aşağıdakı prinsiplər əsasında qurulmuşdur

- Adekvatlıq - mükafatlandırmanın Azərbaycan Respublikası qanunvericiliyinə, qabaqcıl beynəlxalq təcrübəyə və Bankın strategiyasına adekvat olması;
- Ədalətlilik - dəqiq ölçülmüş əsas effektivlik göstəriciləri əsasında obyektiv qiymətləndirmə ilə işçinin əməyinin ədalətli ödənişi.
- Balanslaşma - bütün növ mükafatların əsaslandırılmış və nəticəyə əsaslanaraq ödənilməsi, həm fərdi, həm də kollektiv əməyi stimullaşdırmağa yönəlməsi;
- Səmərəlilik - mükafatlandırmaya yönəldilən xərclərin Bank üçün adekvat səmərə gətirməsi;
- Uyğunluq - mükafatlandırma sisteminin əmək bazarı səviyyəsinə uyğunluğu;

Mükafatlandırma sistemi Bankın korporativ idarəetmə mexanizminin əsas komponentlərindən birini təşkil edir və aşağıdakı məqsədlərə nail olmağa xidmət edir:

- Mükafatlandırma siyasətinin Bankın risklərin idarəedilməsi üzrə qaydaları ilə uyğunluğunun təmin edilməsinə;
- Bankın əmək bazarında rəqabətə dayanılıqlılığının artırılmasına;
- Bankın riskyönümlü biznes fəaliyyətə uyğunluğunun təmin edilməsinə;

- İşçilərinin əmək fəaliyyəti zamanı səmərəliliyinin artırılmasına;
- İşçilər arasında ruh yüksəkliyinin artırılmasına.

Mükafatlandırma sisteminin rəqabətə dayanıqlılığı aşağıdakı prinsiplərə əsaslanır.

- Bank mütəmadi olaraq inflyasiyanın və mükafatlandırma sisteminin rəqabət qabiliyyətinin təhlilini aparır, bazar dəyişikliyi dinamikası və Bankın maliyyə imkanlarını nəzərə alaraq müvafiq qərarlar qəbul edir.
- Əməyin ödənişinin rəqabətə davamlılığını yoxlamaq məqsədilə Bank əmək haqqı və maddi motivasiya məbləğini cəmləşdirərək qiymətləndirmə aparır.
- Bank öz inkişafında müstəsna rolu olan məhdud sayda mühüm işçilərin və vəzifələrin əməyini orta bazar qiymətindən yuxarı ödəyə bilər, digər işçilərə Bank əmək bazarına və daxili əmək haqqı siyasətinə uyğun ödənişlər edir.
- Mükafatlandırmanın strukturu bazar şərtlərinin və bankın maliyyə vəziyyətinin dəyişməsinə müvafiq olaraq mütəmadi yenilənir.
- Mükafatlandırma paketinin qiymətləndirməsinin obyektivliyini artırmaq, həmçinin sistemin Bankın daxilində şəffaflığı təmin etmək məqsədi ilə Bank işçilər üçün mükafatlandırma siyasətinin əsas prinsiplərini, rəqabət üstünlüklərini, habelə motivasiyanın hesablanmasında istifadə edilən metod və meyarlar haqqında məlumatlandırmanı aktiv şəkildə həyata keçirir.